AMEA rəhbərliyi görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın əziz xatirəsini yad edib

Aprelin 15-də AMEA-nın prezidenti akademik İsa Həbibbəyli və AMEA-nın vitse-prezidentləri - akademik Rasim Əliquliyev və akademik İradə Hüseynova Ümummilli Lider Heydər Əliyevin ömürgün yoldaşı, görkəmli oftalmoloq-alim, Azərbaycan Respublikasının Əməkdar elm xadimi, akademik Zərifə xanım Əliyevanın anım günü ilə bağlı Fəxri xiyabanda məzarını ziyarət ediblər.

AMEA nümayəndələri Ulu Öndər Heydər Əliyevin və akademik Zərifə xanım Əliyevanın məzarları önünə gül dəstələri düzüb, əziz xatirələrini dərin ehtiramla yad ediblər.